

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 194 (21.346)

7 oktyabr 2015-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Ucar rayonuna səfərə gedib.

Dövlətimizin başçısı əvvəlcə Ucar şəhərinin mərkəzində xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsi önünə gül dəstəsi qoyub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da “Ucar Aqro” MMC-nin quş kəsimi və broyler fabriklərinin fəaliyyəti ilə, “Fermer” yol-istirahət mərkəzində yaradılan şəraitlə tanış olub, Ucar Rayon Mərkəzi Xəstəxanasının yeni binasının, Yeni Azərbaycan Partiyasının rayon təşkilatının yeni inzibati binasının, Ucar Tarix-Diyarşünaslıq Muzeyi üçün inşa olunan yeni binanın, Ucar Gənclər Mərkəzinin, Göyçay-Ucar avtomobil yolunun açılışlarında iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Ucara səfərini başa çatdıraraq Göyçay rayonuna gedib.

Oktyabrın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Göyçayda Gənclər Mərkəzinin açılışında iştirak edib, Bayraq Meydanı kompleksində yaradılan şəraitlə tanış olub.



## Kürçülü kəndi müasir yaşayış məntəqələrinin sırasına qoşulmuşdur

Ümummilli liderimiz Heydər Əliyevin quruculuq xətti Azərbaycanı davamlı inkişaf yoluna çıxarmışdır. Sabitlik və sürətli sosial-iqtisadi inkişaf, aparılan genişmiqyaslı quruculuq işləri və açılan yeni iş yerləri bu gün ölkəmizin əsas inkişaf göstəriciləridir. Həyata keçirilən tədbirlər yaşayış məntəqələrinin davamlı inkişafını təmin etmiş, əhalinin rifahı yüksəlmişdir.

Son illər Şərur rayonunun quruculuq tədbirləri aparılan kəndləri də öz simasını dəyişərək müasir yaşayış məntəqələrinə çevrilmişlər.

Oktyabrın 6-da Şərur rayonunun Kürçülü kəndində yeni sosial obyektlər istifadəyə verilmişdir.

## Kürçülü kənd tam orta məktəbi yeni binada fəaliyyət göstərəcək

Oktyabrın 6-da Kürçülü kənd tam orta məktəbinin yeni binasının açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində iştirak etmişdir.

Məktəbin direktoru Zülfiyyə Məmmədova çıxış edərək demişdir ki, kənddə istifadəyə verilən sosial obyektlər sırasında yeni məktəb binasının da olması müəllimlərin sevincinə səbəb olmuşdur. Bu gün hər bir müəllim muxtar respublikanın sürətli sosial-iqtisadi inkişafı ilə fəxr edir, qürur hissi keçirir. Məktəbdə yaradılan müasir tədris şəraiti kollektivin məsuliyyətini daha da artırır. Zülfiyyə Məmmədova yaradılan şəraitə görə kollektiv adından minnətdarlıq etmişdir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Kürçülü kənd tam orta məktəbinin istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək demişdir: Bu gün Azərbaycanda gənclərin təhsilinə və sağlam böyüməsinə ciddi diqqət yetirilir. Dövlət tərəfindən təhsilin inkişafı istiqamətində ardıcıl tədbirlər görülür, dövlət proqramları qəbul edilərək icra olunur. “Azərbaycan Respublikası regionlarının





2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”na uyğun olaraq hər il ölkəmizdə müasir məktəb binaları tikilərək istifadəyə verilir, təhsil sahəsində yeni nailiyyətlər qazanılır. Artıq ümumtəhsil məktəblərini bitirən gənclər Azərbaycanın və dünyanın qabaqcıl ali məktəblərində təhsillərini davam etdirirlər. Bu tədbirlərlə yanaşı, ölkəmizdə peşə təhsilinin inkişafı da diqqət mərkəzində saxlanılır, peşə məktəbləri tikilir, gənclərin peşə sahibi olması istiqamətində ardıcıl tədbirlər görülür.

Ali Məclisin Sədri ümummilli liderimiz Heydər Əliyevin ***“Gənc nəslin tərbiyəsinə və təhsilinə ciddi fikir versək, onda gələcəyimiz üçün böyük işlər görmüş olarıq”***, – fikrini xatırladaraq demişdir: Bu gün yetişən gənclik ölkəmizin gələcəyidir. Ona görə də məktəblərdə dərs prosesi, müəllim-şagird münasibətləri qarşılıqlı hörmət əsasında qurulmalıdır. Şagirdlər müəllimə şəxsiyyət kimi, müəllimlər isə şagirdə gələcəyin qurucusu kimi baxmalıdır. Kürçülü kənd tam orta məktəbində bu proseslərin tənzimlənməsi üçün lazımi şərait yaradılmış, müasir tədris avadanlıqları kollektivin istifadəsinə verilmişdir. Müəllimlər bu avadanlıqlardan səmərəli istifadə etməli, tədrisin keyfiyyəti artırılmalı, şagirdlər keçirilən dərsləri qavrama yolu ilə mənimsəməlidirlər.

Ali Məclisin Sədri demişdir: Bu gün ölkəmizdə təhsil sahəsində həyata keçirilən tədbirlərin başlıca məqsədi ondan ibarətdir ki, gələcəyimizin qurucuları olan gənclər təhsilli və vətənpərvər böyüdülsünlər. Kürçülü kənd tam orta məktəbi üçün müasir binanın tikilib istifadəyə verilməsi də bu məqsədə xidmət edir. Ona görə də müəllim və şagirdlər üzərlərinə düşən məsuliyyəti dərk etməlidirlər. Müəllimlər bilməlidirlər ki, onlar gələcəyin qurucularını hazırlayırlar. Şagirdlər isə bilməlidirlər ki, onlar gələcəyin qurucuları kimi yetişməlidirlər.

Ali Məclisin Sədri bu vəzifələrin icrasında kollektivə uğurlar arzulamış və təhsil sahəsində qazanılan nailiyyətlərə görə təşəkkür etmişdir.

Sonra Ali Məclisin Sədri Şərur rayon ümumtəhsil məktəblərində əla qiymətlərlə oxuyan 38 şagirdə kompüter dəsti hədiyyə etmiş və açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, ikimərtəbəli bina 234 şagird yerlikdir. Məktəbdə 13 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, 4 elektron lövhəli sinif, hərbi kabinə, şahmat sinfi, kompüter və müəllimlər otaqları, kitabxana, bufet və idman zalı vardır. Laboratoriyalarda ən müasir təcrübə avadanlıqları və əyani vasitələr qoyulmuşdur. Məktəbin kitabxanasında 1815 dərslik və 2008 bədii ədəbiyyat vardır.

Muxtar respublikada elektron təhsilin tətbiqi sahəsində ardıcıl tədbirlər görülür. İstifadəyə verilən məktəb binalarında elektron lövhələr quraşdırılır, kompüter sinifləri yaradılır, internetə çıxış təmin olunur. Kürçülü kənd tam orta məktəbində də 4 elektron lövhə quraşdırılmış, kompüter otağında internetə qoşulan 19 kompüter dəsti qoyulmuşdur.

Elektron lövhəli sinifdə muxtar respublikanın 221 məktəbi ilə Naxçıvan Dövlət Xalça Muzeyi arasında distant dərs keçirilmişdir.

Ali Məclisin Sədri sinif otaqlarında olmuş, dərs prosesi ilə maraqlanmışdır. Bildirilmişdir ki, bu il Kürçülü kənd tam orta məktəbində birinci sinfə 14 şagird qəbul olunmuşdur.

Son illər muxtar respublikada şahmatın tədrisinə xüsusi diqqət yetirilir, gənclərdə erkən yaşdan əqli idman növünə maraq formalaşdırılır. Məktəblərdə istifadəyə verilən şahmat otaqları bu sahədə işlərin daha səmərəli təşkilinə imkan verir. Zəruri avadanlıqlarla təchiz edilən şahmat otağında şagirdlər şahmatın sirlərinə yiyələnəcəklər. Geniş idman zalında isə gənclərin digər idman növləri ilə məşğul olması üçün şərait vardır.

Ardı 2-ci səhifədə



Şagirdlərin hərbi hazırlığının artırılması vacib şərtdir. Kürçülü kənd tam orta məktəbində bununla bağlı lazımi tədbirlər görülmüş, hərbi kabinə əyani tədris vasitələri ilə təchiz edilmişdir.

Müəllimlərlə görüşən Ali Məclisin Sədri demişdir: Məktəb gənclərə təhsil verməklə yanaşı, həm də onlara müstəqil qərar qəbul etməyi öyrədir. Ümumtəhsil məktəblərini bitirən gənclər gələcəkdə mütləq bir peşə sahibi olmalıdırlar. Bu da müəllimlərin üzərinə düşən əsas vəzifədir. Müəllimlər şagirdlərlə fərdi qaydada məşğul olmalı, təhsil verməklə yanaşı, həm də onları gələcəyə hazırlamalıdırlar. Ölkəmizdə bu vəzifələrin yerinə yetirilməsi üçün lazımi şərait yaradılmışdır. Təhsilin inkişafına hərtərəfli qayğı göstərilir, müəllimlərin əməkhaqları artırılır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2015-ci il 2 oktyabr tarixli Sərəncamına əsasən Naxçıvan Muxtar Respublikasından olan 4 müəllim "Azərbaycan Respublikasının Əməkdar müəllimi" fəxri adına, 4 müəllim isə "Tərəqqi" medalına layiq görülmüşdür. Bütün bunlar müəllimlərin məsuliyyətini daha da artırmalı, təhsilin səviyyəsi yüksəldilməlidir.

Müəllimlər adından minnətdarlıq edən Rəşadə Seyidova demişdir ki, Şərur rayonunda müasir təhsil infrastrukturu yaradılır. Müasir məktəb binalarının tikilib istifadəyə verilməsi və yeni elektron tədris vasitələrinin tətbiqi təhsilin keyfiyyətcə yeni mərhələyə yüksəlməsinə səbəb olub. Bütün bunlar müəllimləri daha səylə işləməyə, intellektli, vətənpərvər və təhsilli gənclər yetişdirməyə ruhlandırır.

## Kürçülü Kənd Mərkəzi istifadəyə verilmişdir






Oktyabrın 6-da Kürçülü kəndində yeni kənd mərkəzi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov kənd mərkəzinin açılışını bildirən lenti kəsmiş və binada yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, 2 mərtəbədən ibarət olan binada kənddə fəaliyyət göstərən dövlət qurumlarının hər biri üçün ayrıca iş otaqları ayrılmışdır. Mərkəzdə rabitə evi, polis sahə, baytarlıq və feldşer-mama məntəqələri, kitabxana, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, klub və 51 yerlik iclas zalı vardır.

Birinci mərtəbədəki rabitə evində kənddə 384 nömrəlik ATS quraşdırılmış, yeni poçt bölməsi yaradılmışdır. Binada Kürkənd və Kürçülü kəndlərini əhatə edən polis sahə və baytarlıq məntəqələri üçün yaradılan şərait müvafiq sahələr üzrə xidmətin təşkilinə imkan verəcəkdir.



Zəngin fondu ilə seçilən kitabxanada 4802 kitab vardır. Kənd mərkəzində Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı üçün də nümunəvi iş şəraiti yaradılmışdır. Baxış zamanı məlumat verilmişdir ki, Yeni Azərbaycan Partiyası Kürçülü kənd ərazi ilk təşkilatının 108 üzvü vardır. Onlardan 42-si gənc, 16-sı isə qadınlardır.

Kənd yaşayış məntəqələrində yeni tibb müəssisələrinin tikintisi, onların müasir avadanlıqlarla təchiz olunması və kadr təminatı muxtar respublikada həyata keçirilən səhiyyə islahatlarının mühüm istiqamətlərindəndir. Kənd mərkəzinin birinci mərtəbəsində feldşer-mama məntəqəsi üçün lazımi dərman preparatları, müayinə və peyvənd çantaları qoyulmuş, 3 iş otağı istifadəyə verilmişdir.

Ali Məclisin Sədri kənddə tibbi xidmətin təşkili ilə bağlı müvafiq tapşırıqlar vermişdir.

## Kürçülüdə yeni xidmət mərkəzi inşa olunmuşdur






Oktyabrın 6-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov kənddəki xidmət mərkəzinin də açılışını etmişdir.

Mərkəzdə bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri, ərzaq və təsərrüfat malları mağazası fəaliyyət göstərir. Burada 5 nəfər işlə təmin olunmuşdur.

Baxış zamanı qeyd olunmuşdur ki, xidmət mərkəzinin üstün cəhətlərindən biri də kənddə istehsal olunan məhsulların burada satışa çıxarılmasıdır. Bu da əhalinin keyfiyyətli məhsullarla təminatına imkan verir.

Həmin gün Ali Məclisin Sədri kənd sakinləri ilə də görüşmüşdür.

Sakin Yusif Cəfərov minnətdarlıq edərək demişdir: Hər bir yaşayış məntəqəsinin, xüsusilə kəndlərin inkişafı davamlı olarkən insanlar da rahat və firavan yaşayır. Bu gün muxtar respublikanın kəndlərinə, şəhərlərinə nəzər salarkən inkişafın, müasirliyin və rahat yaşayışın şahidi oluruq. Artıq kəndlərdə şəhər rahatlığı yaradılıb. Kürçülüdə aparılan quruculuq işləri, istifadəyə verilən yeni obyektlər sakinləri sevindirir. Dövlətin qayğısını daim üzərimizdə hiss edirik. Sabitlik və əmin-amanlıq şəraitində yaşayırıq. Hər bir insan üçün bundan böyük sərvət yoxdur. Ulu öndərimizin siyasi xəttinin davam etdirilməsi ölkəmizi, onunla birlikdə isə doğma Naxçıvanımızı daha böyük inkişafa qovuşdurmuşdur. Ona görə də hər bir sakin qarşıdan gələn Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə ulu öndər Heydər Əliyevin yoluna, ölkəmizin davamlı inkişaf və tərəqqisinə səs verəcəkdir.

Ali Məclisin Sədri demişdir ki, Kürçülü kəndində həyata keçirilən tədbirlər, aparılan genişmiqyaslı quruculuq işləri dövlətin vətəndaşlarına göstərdiyi qayğının daha bir ifadəsidir. Kənddə insanların rahat yaşaması, öz təsərrüfatları ilə məşğul olması üçün bütün imkanlar yaradılmışdır. Bütün bu tədbirlərin həyata keçirilməsi ümumilikdə ölkəmizin inkişafına və daha da möhkəmlənməsinə xidmət edir. Sakinlər tikilənləri, qurulanları, kəndin bugünkü abadlığını qoruyub saxlamalı, məskunlaşma artmalıdır.

* * *

Kürçülü kəndində 2 kilometr uzunluğunda avtomobil yoluna asfalt örtük salınmış, yolun müxtəlif hissələrinə çınqıl qatı verilmiş, 8 su keçidi və beton kanal tikilmişdir. Kəndin rabitə sistemi yenilənmiş, 2 min metr məsafədə fiber-optik kabel xətti çəkilmişdir. Elektrik enerjisinin və təbii qazın dayanıqlı verilişi də təmin edilmiş, 2200 metr elektrik və 1130 metr qaz xətti çəkilmişdir. Həmçinin ərazilərin qrunt sularından təmizlənməsi məqsədilə qapalı drenaj sistemi də qurulmuşdur.

# Kürkənddə yeni məscid istifadəyə verilmişdir





Kürkənd Şərur rayonunun abad yaşayış məntəqələrindəndir. Ötən il kənddə quruculuq işləri aparılmış, yeni sosial obyektlər istifadəyə verilmişdir. Həyata keçirilən quruculuq tədbirlərinin davamı olaraq bu il Kürkənddə yeni məscid binası da inşa olunmuşdur.

Oktyabrın 6-da Kürkənd məscidi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə çıxış edərək demişdir: Bu gün Kürçülü kəndində məktəb binası, kənd və xidmət mərkəzlərinin, Kürkənddə isə məscid binası və ehsan evinin istifadəyə verilməsi ölkəmizdə bütün sahələrin inkişafına göstərilən diqqət və qayğının daha bir ifadəsidir. Kənddə şagirdlərin yaxşı təhsil alması, sakinlərin müasir rabitə xidmətindən istifadə etməsi, onların sağlamlığının qorunması və dövlət qurumlarının səmərəli fəaliyyəti üçün bütün imkanlar yaradılmışdır. Bu gün yeni məscid binasının istifadəyə verilməsi isə ölkəmizdə dini-mənəvi dəyərlərə göstərilən qayğının davamıdır.

Ali Məclisin Sədri demişdir: Din mənəviyyat deməkdir. İnsanın həyatda düzgün yol seçməsində, mənəvi aləminin zənginləşməsində dini dəyərlərin mühüm rolu vardır. Bu dəyərlərin qorunub yaşadıldığı mənəviyyat ocaqlarından biri də məscidlərdir. Bu müqəddəs yerlərdə insanlar mənəvi saflıq ətrafında birləşirlər.

Ali Məclisin Sədri muxtar respublikada dini-mənəvi dəyərlərin qorunub yaşadılması sahəsində həyata keçirilən tədbirlərin bundan sonra da davam etdiriləcəyini bildirmişdir.

Kənd ağsaqqalı Fəxrəddin Həsənov sakinlər və dindarlar adından minnətdarlıq edərək demişdir ki, muxtar respublikada dini-mənəvi dəyərlərə xüsusi qayğı göstərilir. İslami dəyərlərə hörmət və ehtiramla yanaşılır. Şəhər və kəndlərdə yeni məscid binaları tikilərək istifadəyə verilir. Kürkəndin quruculuq xəritəsinə daxil olan məscid binasında da lazımi şərait yaradılmışdır. Kənd ağsaqqalları, dindarlar bu qayğını yüksək qiymətləndirirlər.

Ali Məclisin Sədri məscid binasında yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, 144 kvadratmetr sahəsi olan məscid binası zal və minarədən ibarətdir. İki hissədən ibarət olan zalda qadın və kişilərin ayrı-ayrılıqda ibadət etməsi üçün şərait yaradılmışdır.

Sonra Ali Məclisin Sədri Kürkənddə yeni tikilən ehsan evinə də baxmışdır.

Məlumat verilmişdir ki, ümumi sahəsi 160 kvadratmetr olan ehsan evi zal və mətbəxdən ibarətdir. Binaya su, elektrik və qaz xətləri çəkilmiş, mətbəx zəruri inventarla təchiz edilmişdir. Binanın ətrafında da abadlıq işləri görülmüş, 450 metr yola asfalt örtük salınmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş

Oktyabrın 6-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İran İslam Respublikasının Araz Azad Ticarət və Sənaye Zonasının icraçı direktoru Möhsün Xadim Ərəbbaği ilə görüşmüşdür.

Ali Məclisin Sədri qonağı salamlamış, onu Naxçıvan Muxtar Respublikasında görməkdən məmnunluğunu ifadə etmişdir. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İranın yaxın vilayətləri arasındakı münasibətlərə diqqəti çəkən Ali Məclisin Sədri muxtar respublikada iqtisadiyyatın müxtəlif sahələrində, xüsusilə sənayenin və sahibkarlığın inkişafı istiqamətində həyata keçirilən tədbirlərdən danışmış, Araz Azad Ticarət və Sənaye Zonasının əlaqələrin inkişafında geniş imkanlara malik olduğunu bildirmişdir.

Möhsün Xadim Ərəbbaği göstərilən səmimi münasibətə görə minnətdarlıq etmiş, Naxçıvan Muxtar Respublikasının inkişafının məmnunluq doğurduğunu bildirmişdir. Araz Azad Ticarət və Sənaye Zonası haqqında məlumat verən qonaq ikitərəfli əlaqələrin inkişaf perspektivlərini qeyd etmişdir.

İran İslam Respublikasının Naxçıvandakı baş konsulu Mənsur Ayrom görüşdə iştirak etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



# Araz Azad Ticarət və Sənaye Zonası İranın ən əhəmiyyətli sənaye bölgələrindəndir

*İran İslam Respublikasında iqtisadiyyatın inkişafı və xarici ölkə investorlarının cəlbi sahəsində ardıcıl tədbirlər görülür. Ölkədə əlverişli investisiya mühiti yaradılmışdır. Haliyədə İranda 7 Azad Ticarət Zonası fəaliyyət göstərir. Bunlardan biri də Araz Azad Ticarət və Sənaye Zonasıdır. İran İslam Respublikasının İslami Şura Məclisinin 2003-cü il 24 avqust tarixli qərarı ilə yaradılan zona 2004-cü ilin sentyabr ayında fəaliyyətə başlamışdır.*

Araz Azad Ticarət və Sənaye Zonasının mühüm coğrafi şəraitə malik yük dəhlizi üzərində yerləşməsi, istehsal olunan məhsulların ixrac imkanları, uzunmüddətli vergidən azad olma, sənaye maşınlarının və xammalın idxalında gömrük rüsumlarının alınmaması daxili və xarici investorların bura axınının əsas səbəblərindəndir. Sənaye, xidmət, anbarçılıq, kənd təsərrüfatı, ticarət, turizm və avtomobil xidmətləri sahələrində 310 şirkətin fəaliyyət göstərdiyi Araz Azad Ticarət və Sənaye Zonasını sahibkarlar şəhəri də adlandırmaq olar. Burada 96 bina sahibkarların ixtiyarına verilmişdir. Hazırda zonada müxtəlif sahələr üzrə 215 obyekt inşa olunur ki, bunlar da gələcəkdə sahibkarların istifadəsinə veriləcəkdir.

Araz Azad Ticarət və Sənaye Zonasında daxili və xarici investisiya qoyuluşunun həcmi ilbəil artmaqdadır. Belə ki, 2005-2014-cü illərdə ticarət və sənaye zonasında 670 milyon dollardan artıq neft və qeyri-neft məhsullarının ixracı həyata keçirilmiş, 957 milyon dollar məbləğində xarici tranzit işləri görülmüşdür. Bütün bunlar məşğulluq səviyyəsini xeyli artırmışdır. Əgər 2005-ci ildə Araz Azad Ticarət və Sənaye Zonasında 1137 nəfər işləyirdisə, hazırda onların sayı 11 min 384 nəfərə çatmışdır. Bundan başqa, sənaye zonasının əhatə etdiyi Culfa yaşayış məntəqəsində 15 mindən artıq əhali yaşayır.

Son illər turizmin inkişafı azad zonada gəlirlərin artmasına səbəb olmuşdur. İstər yaradılan müasir infrastruktur, istərsə də ərazidə tarixi abidələrin olması xarici turistlərin diqqətini daha çox cəlb edir. Ötən bir il ərzində 6 milyon 430 turist zonaya səfər etmişdir. Hazırda zonanın 700 hektarlıq ərazisini əhatə edən turizm sahəsində 54 layihə icra olunmaqdadır. Bunlardan 14-ü restoran, 13-ü hotel və mehmanxana, 20-si ticarət mərkəzi, 5-i istirahət və 2-si xidmət mərkəzidir.

Araz Azad Ticarət və Sənaye Zonasında aqrar sektorun inkişafı üçün də geniş imkanlar mövcuddur. Gözəl təbii şəraiti, zəngin su ehtiyatı və məhsuldar torpaqların olması kənd təsərrüfatının inkişafına, bu sahədə emal və istehsal sahələrinin yaradılmasına imkan verir. Ərazidə 22 min 590 hektar əkinəyararlı torpaq sahəsi mövcuddur ki, onlardan da səmərəli istifadə olunur. Hazırda ticarət və sənaye zonasında 190 hektar sahəni əhatə edən istixanalar fəaliyyət göstərir. 22 min 400 hektar sahədə isə müxtəlif meyvə bağları və əkin sahələri vardır. Bu bağlar və əkin sahələri əsasən dövlətin və özəl bölmənin investisiyası ilə ərsəyə gəlmişdir.

Bu gün azad zonada xarici investorların cəlbi sahəsində ardıcıl tədbirlər görülür. Ona görə də büdcə gəlirlərinin 70 faizi tikinti və möhkəmləndirmə işlərinə sərf olunur. Son illər müxtəlif sənaye şəhərciklərinin salınması da bu sahədə həyata keçirilən tədbirlərdəndir. Ticarət zonasındakı sənaye şəhərciklərindən biri üçün 135, digəri üçünsə 260 hektar ərazi ayrılaraq sahibkarların ixtiyarına verilmişdir. Hazırda üçüncü şəhərciyin salınması istiqamətində işlər davam etdirilir.

Naxçıvan Muxtar Respublikasında sənayenin və kənd təsərrüfatının inkişafı, bu sahələr üzrə yerli və xarici sahibkarların fəaliyyətinin dəstəklənməsi İranın yaxın vilayətləri ilə muxtar respublika arasında əlaqələrin inkişafına mühüm töhfə verir. Bu əlaqələrin tərkib hissəsi kimi Araz Azad Ticarət və Sənaye Zonası da iqtisadi-ticarət sahəsində əməkdaşlığın inkişafı və sahibkarların qarşılıqlı fəaliyyəti üçün geniş imkanlar açır.



Executive Proclamation

WHEREAS, November 9th, 2015 commemorates the ninety fourth anniversary of Serq Qapisi Newspaper, a premier publication in the Autonomous Republic of Nakhchivan, Republic of Azerbaijan; and

WHEREAS, a Serq Qapisi Newspaper was founded on November 9, 1921 and since 1969 has been circulated as a daily publication; and

WHEREAS, the 1990's marked a new era for the newspaper because Serq Qapisi advocated for the independence of Azerbaijan and the strengthening of its ties with the United States; and

WHEREAS, in March 2000, the chairman of the Azerbaijan Supreme Assembly signed an executive order improving the conditions of press coverage, and its management and infrastructure, with the goal of supporting freedom of the press and free speech; and

WHEREAS, on July 22, 2010 – the 135th anniversary of the national press – the government supported the inauguration of a new building for Serq Qapisi, which then began to print in color and to publish five editions every week; now, therefore

I, CHRIS ABELE, County Executive for Milwaukee County, do hereby recognize the

94th Anniversary of Serq Qapisi Newspaper

and the central role Serq Qapisi plays in the Azerbaijani country and community.

Chris Abele
Milwaukee County Executive

# Amerika Birləşmiş Ştatlarının Visconsin Ştatının Miluaukee dairəsi “Şərq qapısı” qəzetinin 94-cü ildönümü ilə bağlı hökumət bəyannaməsi qəbul etmişdir

Amerika Birləşmiş Ştatlarının Visconsin Ştatının Miluaukee dairəsi 1834-cü ildə yaradılmışdır. Bu dairə Amerika Birləşmiş Ştatlarının ən çox tanınan 45-ci dairəsidir. Hazırda dairədə 1 milyona yaxın əhali yaşayır. Amerikalı jurnalist və tədqiqatçı Peter Tasenin müraciətinə əsasən Miluaukee dairəsinin rəhbəri Çris Abele “Şərq qapısı” qəzetinin 94-cü ildönümü münasibətilə hökumət bəyannaməsi qəbul etmişdir.

Bəyannamədə qeyd olunur ki, 2015-ci il noyabrın 9-da Azərbaycan Respublikasının tərkibində olan Naxçıvan Muxtar Respublikasının ilk nəşri olan “Şərq qapısı” qəzetinin 94-cü ildönümü qeyd olunacaq. 1921-ci il noyabrın 9-da “Şərq qapısı” qəzetinin əsası qoyulmuş, 1969-cu ildən qəzetin gündəlik və böyük formada nəşri təmin edilmişdir. 1990-cı ildə “Şərq qapısı” qəzeti üçün yeni dövr başlamışdır. Qəzet Azərbaycanın müstəqillik ideyalarının və Amerika Birləşmiş Ştatları ilə əlaqələrinin genişləndirilməsinə tərəfdar olmuşdur.

2000-ci ilin mart ayında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri mətbuat azadlığı və azad nitq fəaliyyətini dəstəkləmək məqsədi ilə mətbuat orqanının maddi-texniki bazasının yaxşılaşdırılması barədə Sərəncam imzalamışdır. 2010-cu il iyulun 22-də milli mətbuatın yaradılmasının 135-ci ildönümü günündə böyük dövlət qayğısının bariz ifadəsi kimi “Şərq qapısı” qəzeti üçün yeni bina istifadəyə verilmiş, qəzetin rəngli nəşrinə başlanmış və hazırda qəzet həftədə beş dəfə nəşr edilir.

## Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının inkişafı: mövcud vəziyyəti və perspektivləri

*Bu mövzuda AMEA Naxçıvan Bölməsində elmi konfrans keçirilib*



***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin birgə keçirdiyi elmi konfransı giriş sözü ilə bölmənin sədri, akademik İsmayıl Hacıyev açıb. O, Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının inkişafı ilə bağlı görülən işlərdən, bu istiqamətdə həyata keçirilən məqsədyönlü tədbirlərdən danışıb.***

Akademik bildirib ki, Naxçıvan Muxtar Respublikasının müasir sosial-iqtisadi inkişaf səviyyəsində kənd təsərrüfatı da yeni bir inkişaf mərhələsinə qədəm qoyub. Bütün bunlar aqrar sektorun sürətli inkişafını təmin etməklə yanaşı, kənd təsərrüfatı məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsini stimullaşdırıb. Aqrar sektora göstərilən diqqət onun muxtar respublika iqtisadiyyatında ümumi payının artmasına və əsas gəlirli sahələrdən birinə çevrilməsinə səbəb olub.

Konfransda Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri Elşad Əliyev "Aqrar sahənin dinamik inkişafı və perspektivləri" mövzusunda çıxış edərək əldə olunan nailiyyətlər haqqında ətraflı məlumat verib.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın aparıcı sahələrindən biri də aqrar sektordur. Aqrar islahatların aparılması, yeni mülkiyyət münasibətlərinə əsaslanan təsərrüfat sahələrinin yaradılması istiqamətində görülmüş işlər muxtar respublikada kənd təsərrüfatının dinamik inkişafına şərait yaradıb. Təsdiq olunmuş dövlət proqramlarında nəzərdə tutulan vəzifələrin yerinə yetirilməsi, meliorasiya və irriqasiya tədbirlərinin gücləndirilməsi, lizinq xidmətinin genişləndirilməsi, taxıl və soyuducu anbarların tutumunun artırılması, istixana komplekslərinin, quşçuluq və balıqçılıq təsərrüfatlarının, meyvə-tərəvəz müəssisələrinin işə salınması kənd təsərrüfatının inkişafını təmin edib. Son illərdə ümumi sahəsi 100 min kvadratmetrdən artıq olan istixana komplekslərinin, ümumi tutumu 12 min 610 ton olan soyuducu, tutumu 27 min ton olan uzunmüddətli və 43 min ton olan qısamüddətli taxıl ehtiyatı anbarlarının, 17 taxıl emalı müəssisəsinin, 222 heyvandarlıq, 64 quşçuluq, 94 arıçılıq, 12 balıqçılıq, 68 bağçılıq və üzümçülük təsərrüfatlarının yaradılması bunun əyani sübutudur.

Elmi konfransda AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun direktoru, akademik Tariyel Talıbov "Naxçıvan Muxtar Respublikasında meyvəçilik və tərəvəzçilik: imkanlar, perspektivlər", Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri Əsgər Həsənov "Genetik fondun qorunub saxlanılması və ərzaq təminatı", AMEA Naxçıvan Bölməsi Elmi-təşkilat şöbəsinin rəisi, kənd təsərrüfatı üzrə fəlsəfə doktoru Orxan Bağırov "Naxçıvan Muxtar Respublikasının təsərrüfat əhəmiyyətli çəyirdəkli meyvə bitkiləri", AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun laboratoriya rəhbəri, kənd təsərrüfatı üzrə fəlsəfə doktoru, dosent Pərviz Fətullayev "Naxçıvan Muxtar Respublikası şəraitində stress amillərə qarşı davamlı taxıl sortlarının yaradılması", həmin institutun böyük elmi işçisi, kənd təsərrüfatı üzrə fəlsəfə doktoru, dosent Loğman Bayramov "Naxçıvan Muxtar Respublikasında almanın genofondu" mövzularında məruzə ediblər.

Sonda konfrans iştirakçılarının sualları cavablandırılıb.

Konfransa yekun vuran AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının inkişafı ilə bağlı həyata keçirilən tədbirlərin davamlı xarakter aldığını bildirib.

***Dünən Babək Rayon İcra Hakimiyyətində icra nümayəndələri və bələdiyyə sədrlərinin iştirakı ilə maarifləndirici tədbir keçirilmişdir.***

## Torpaqlardan təyinatı üzrə istifadə olunması diqqət mərkəzindədir



Tədbiri rayon İcra Hakimiyyəti başçısının birinci müavini Əbdülhüseyn Zamanov açmışdır.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsinin rəisi, kiçik ədliyyə müşaviri Faiq Səfərov "Torpaq üzərində mülkiyyət hüququnun pozulmasına görə məsuliyyət" mövzusunda çıxış edərək bildirmişdir ki, torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətini müvafiq icra hakimiyyəti orqanları həyata keçirirlər. Bu orqanların torpaqlardan istifadə və onların mühafizəsi üzrə səlahiyyətləri dairəsində göstərişləri bütün torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri üçün məcburidir. Torpaq qanunvericiliyinə əsasən, müəyyən kateqoriyaya aid edilmiş torpaqların başqa məqsədlər üçün istifadəsinə yalnız onun təyinatının dəyişdirilməsindən sonra yol verilə bilər. Torpaqların kateqoriyalarının qanunsuz dəyişdirilməsi İnzibati Xətalar Məcəlləsinin 90-cı maddəsində nəzərdə tutulmuş qaydada məsuliyyətə səbəb olur.

Qeyd olunmuşdur ki, torpaqların özbaşına tutulması, torpaq sahələrində qanunsuz tikinti aparılması, torpaqların kateqoriyalarının qanunvericiliyə riayət edilmədən dəyişdirilməsi, torpaqların çirkləndirilməsi, torpağın vəziyyətinə zərərli təsir göstərən obyektlərin layihələşdirilməsi, tikilməsi və istismara verilməsi, mülkiyyətdə və istifadədə olan torpaqların hüdudlarının, mərz nişanlarının məhv edilməsi, torpaqların dövlət uçotundan və qeydiyyatından gizlədilməsi qanunvericiliklə müəyyən edilmiş qaydada cinayət və inzibati məsuliyyətə səbəb olur.

Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin sektor müdiri İntizar Həziyev "Torpaq üzərində mülkiyyət hüququnun təmin edilməsi" mövzusunda çıxış etmişdir.

Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi torpaq qanunvericiliyinin tələblərinə əməl edilməsini təmin etmək məqsədilə 2015-ci ilin sentyabr ayında muxtar respublikanın şəhər və rayonlarında yoxlamalar aparmışdır. Yoxlamalar zamanı yerlərdə torpaqdan istifadə ilə bağlı qanun pozuntularına rast gəlinmişdir. Komitə tərəfindən belə halları aradan qaldırılması üçün yerlərdə icra hakimiyyəti orqanlarının, bələdiyyələrin, fiziki və hüquqi şəxslərin nümayəndələrinin iştirakı ilə görüşlərin keçirilməsi nəzərdə tutulmuşdur. Görüşlərin təşkilində məqsəd dövlət torpaqlarının mühafizəsinə, qorunmasına və istifadəsinə vahid mərkəzdən dövlət nəzarətinin həyata keçirilməsi, belə torpaqlardan kateqoriyasına zidd istifadə hallarının qarşısının alınmasıdır.

Komitənin yeni funksiyalarının icrasında yerli icra hakimiyyətləri, fiziki və hüquqi şəxslər, bələdiyyələr və aidiyyəti dövlət qurumları ilə fəaliyyətin koordinasiyası vacibdir. Bu baxımdan rayonlarda belə tədbirlərin keçirilməsi mühüm əhəmiyyət daşıyır. Komitə tərəfindən torpaqların mühafizəsi, təyinatı üzrə istifadəsi, qeyri-qanuni istifadə hallarının qarşısının alınması istiqamətində təxirəsalınmaz tədbirlər görülür. Yeni əsasnamə ilə muxtar respublikada torpaqlardan istifadə və onların mühafizəsinə nəzarət üzrə dövlət müfəttişi statusu müəyyən edilmişdir. Komitənin şəhər və rayonlar üzrə müfəttişləri dövlət torpaqlarının mühafizəsinə, qorunmasına, kateqoriyasına zidd istifadəsinə nəzarəti həyata keçirirlər. Müfəttişlər mütəmadi qaydada monitorinq və müşahidələr aparır, aşkar edilmiş qanun pozuntuları ilə bağlı qanunvericiliyə uyğun olaraq tədbirlər həyata keçirirlər. Pozuntularla əlaqədar torpaq və inzibati xətalar barədə qanunvericiliyə əsasən inzibati cərimələr və sanksiyaların tətbiqi nəzərdə tutulmuşdur.

Vurğulanmışdır ki, yerlərdə bəzən torpaqların kateqoriyasına zidd istifadə hallarına rast gəlinir. Bələdiyyə torpaqları yaşayış məqsədilə istifadə olunur, tikintilər aparılır. Eyni zamanda kənd təsərrüfatı, sənaye, örüş və otlaq sahələrində də yaşayış evləri, obyektlər tikilir və ya yaşayış təyinatlı torpaqlarda istehsal obyektləri inşa olunur. Belə halların aradan qaldırılması üçün komitənin torpaq müfəttişləri yoxlamalar həyata keçirirlər. Pozuntu halları aşkar olunduqda qanunvericiliyə uyğun tədbirlər görüləcəkdir. Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsində hazırda bütün kateqoriyalı torpaqların elektron uçotu, xəritələşməsi və məlumat bankının yaradılması istiqamətində işlər aparılır. Bu sistem muxtar respublika üzrə bir mərkəzdən torpaqların idarə olunması, mühafizəsi və istifadəsi üzrə kompleks tədbirləri həyata keçirməyə imkan yaradacaq.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılmışdır.

**Xəbərlər şöbəsi**

## Naxçıvan Muxtar Respublikası üzrə 2015-ci ilin sentyabr ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/S | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri ( manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Kəngərli rayonu | 244200 | 24420 | 24500 | 100,3 |
| 2. | Sədərək rayonu | 93950 | 9395 | 9423 | 100,3 |
| 3. | Ordubad rayonu | 403200 | 40320 | 40433 | 100,3 |
| 4. | Culfa rayonu | 308256 | 30826 | 30896 | 100,2 |
| 5. | Şahbuz rayonu | 143880 | 14388 | 14417 | 100,2 |
| 6. | Şərur rayonu | 611820 | 61182 | 61245 | 100,1 |
| 7. | Naxçıvan şəhəri | 1031195 | 103120 | 103170 | 100,0 |
| 8. | Babək rayonu | 550124 | 55012 | 55012 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 3782746 | 378198 | 335628 | 88,7 |
| | **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | **7169371** | **716861** | **674724** | **94,1** |

## Gömrük işi sahəsində hüquqi maarifləndirmə

***Sual:** Gömrük ödənişlərinə nələr daxildir və belə ödənişlərə gömrük orqanları tərəfindən hansı güzəştlər edilə bilər?*

**Cavab:** Gömrük ödənişlərinə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12 aprel 2001-ci il tarixli 80 nömrəli qərarı ilə təsdiq edilmiş və bəyan edilən malların yerləşdirilməsi üçün seçilmiş gömrük prosedurunun tələbləri əsasında müəyyənləşdirilmiş gömrük rüsumları, Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq əlavə dəyər vergisi, aksizli malların satış qiymətinə daxil edilən aksiz vergisi, xarici dövlətlərdə qeydiyyatda olan avtonəqliyyat vasitələri gömrük ərazisinə daxil olarkən tətbiq edilən yol vergisi, Azərbaycan Respublikasının Gömrük Məcəlləsinin 231-ci maddəsinə əsasən, gömrük yığımları və 233-cü maddəsinə əsasən, gömrük hərraclarında iştiraka görə haqq, gömrük orqanları tərəfindən bəzi fəaliyyət növlərinə lisenziyaların və beynəlxalq avtomobil daşımalarını yerinə yetirən nəqliyyat vasitələrinə sərhəddə icazə blanklarının verilməsinə görə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə alınan dövlət rüsumu daxildir.

Gömrük orqanları tərəfindən belə ödənişlərə hər hansı güzəşt tətbiq edilə bilməz. Tarif güzəştləri yalnız Nazirlər Kabinetinin səlahiyyətində olan məsələdir. Qanunvericiliyə əsasən, tarif güzəştləri istehsal ehtiyaclarının yerli xammal hesabına ödənilməsi mümkün olmadıqda istehsal təyinatlı xammalın və müasir texnologiyanı təmin edən avadanlığın idxalına tətbiq edilə bilər. Nazirlər Kabineti tarif güzəştlərini konkret sahənin inkişafını təmin etmək məqsədilə dövlətin iqtisadi siyasətinə uyğun olaraq həyata keçirir.

Belə güzəştlərin verilməsi "Azərbaycan Respublikasının ərazisinə gətirilən, əlavə dəyər vergisindən azad olunan malların siyahısı haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 31 yanvar 2005-ci il tarixli qərarı ilə tənzimlənir.

Gömrük orqanları tərəfindən gömrük ödənişlərində güzəşt edilə bilməsə də, Azərbaycan Respublikasının Gömrük Məcəlləsinin 246-cı maddəsinə əsasən, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müəyyən etdiyi hallarda və qaydada gömrük borcunun ödənilməsinə görə möhlət verilə bilər. Gömrük borcunun ödənilməsinə görə möhlət 14 gündən 60 günədək müddətə mümkündür.

**Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti**


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Rauf Əliyev

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 746